**Ölkəmizin ərazi bütövlüyünü pozan, əzəli və əbədi torpaqlarımıza göz dikən Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Ermənistan-Azərbaycan münaqişəsi 30 ilə yaxın davam etdi. 30 il ərzində düşmən ölkə beynəlxalq hüququn norma və prinsiplərinə, Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi dörd qətnaməyə məhəl qoymayaraq işğalını davam etdirdi. Beynəlxalq müstəvidə də münaqişənin həllinə nail olunmadı. İllərlə Azərbaycan əraziləri düşmən əsarətində qaldı, tarixi-mədəni abidələrimiz yurd yerlərimizdən tamamilə silindi. Uzun illər davam edən işğal dövründə xalqımız həm maddi, həm mənəvi əziyyətlərə düçar oldu.**



*Dağlıq Qarabağ münaqişəsi həll olunub. İndi məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır və istənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat, əlbəttə ki, qəbuledilləndir.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti.***

# Regionun yeni geosiyasi mənzərəsi formalaşır

2020-ci ilin iyulunda Azərbaycanın Tovuz rayonu istiqamətində sərhəddə baş verən toqquşmalar bölgədəki bütün sülh səylərinə zərbə vurdu. Hər zaman münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olan Azərbaycan 2020-ci il sentyabrın 27-də ərazi bütövlüyünü təmin etmək məqsədilə öz torpaqlarında əks-hücum əməliyyatına başladı. Şanlı ordumuzun rəşadəti, hünəri sayəsində 44 gün ərzində düşmənin işğalçılıq siyasətinə son qoyuldu. Torpaqlarımız azad edildi. Ərazi bütövlüyümüz təmin olundu. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiyanın üçtərəfli Bəyanat imzalaması ilə başa çatdı. Bəyanata əsasən, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını heç bir şərt qoymadan, bir güllə atılmadan Azərbaycana qaytardı.

Birinci Qarabağ müharibəsi nəticəsində erməni işğalı regional əməkdaşlığa və inkişafa mənfi təsir göstərmişdi. İkinci Qarabağ müharibəsini zəfərlə başa vuraraq ərazi bütövlüyünü təmin edən Azərbaycan Cənubi Qafqazda dostluğun, sülhün, təhlükəsizliyin təməlini qoydu, bölgədə yeni reallıqlar yaratdı. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri, infrastrukturun inkişafı üçün genişmiqyaslı layihələr həyata keçirilir. Bir çox beynəlxalq şirkətlərin iştirakı ilə bütün zəruri avtomobil yolları, dəmir yolları və digər infrastruktur yenidən qurulur. Bölgədə təhlükəsizlik və iqtisadi əməkdaşlıq perspektivləri baxımından əhəmiyyətli layihələr reallaşdırılır.

2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatın müddəalarına əməl edən Azərbaycan bölgədəki iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına mühüm töhfələr verir. Belə ki, Bəyanatın 9-cu maddəsinə əsasən Azərbaycanla Naxçıvan arasında əlaqələrin bərpa olunması iqtisadi inteqrasiyanı və region ölkələrinin iqtisadi inkişafını sürətləndirəcək. Zəngəzur dəhlizinin açılması ilə bölgədəki bütün kommunikasiyalar blokadadan çıxacaq. Azərbaycan Respublikasının qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verən üçtərəfli Bəyanatın müddəalarına əməl etməyi, üzərinə götürdüyü öhdəliyə cavabdehlik daşımağı, bunun fonunda da Cənubi Qafqazda davamlı sülhə sadiq olmağı Ermənistandan da tələb edən Azərbaycan Prezidenti İlham Əliyev bölgədə davamlı sülhə, təhlükəsizliyə, əmin-amanlığa nail olunması üçün qətiyyətli mövqe nümayiş etdirir.

Zəngəzur dəhlizi layihəsinin əldə olunmuş razılaşmalar əsasında həyata keçirilməsi Ermənistan üçün də önəmli əhəmiyyət daşıyır. Belə ki, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə əməl edəcəyi təqdirdə, Ermənistanın sivil dövlətlər arasında addımlamasına zəmin yaranacaq və region dövlətləri arasında iqtisadi inkişafı genişlənəcək. Bu baxımdan, Ermənistanın regional əməkdaşlıq çərçivəsində addımlar atması bu ölkənin özü üçün daha vacibdir. Çünki Zəngəzur dəhlizinin açılması bu ölkəyə əhəmiyyətli iqtisadi üstünlüklər gətirəcək. Zəngəzur dəhlizi və digər ənənəvi marşrutlardan istifadə etməklə Ermənistan özünü məhkum etdiyi iqtisadi təcridə son qoya və regional nəqliyyat layihələrinə qoşula bilər.

Lakin pis xislətli Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməyərək özü üçün də olduqca mühüm əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin yaradılmasına hər vəchlə maneçilik törədir. Dəhlizin yalnız Ermənistan ərazisindən və onun icazəsi ilə yaradıla biləcəyini düşünən düşmən ölkənin rəhbərliyi bu amildən Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyi planlayırdı. Lakin bütün alçaq niyyətləri kimi mənfur düşmənin bu niyyəti də baş tutmadı. Bu il mart ayının 11-də Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Bakıda keçirilən 15-ci iclası çərçivəsində Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalanmışdır. Qonşu ölkənin ərazisindən keçərək Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni kommunikasiya bağlantılarının yaradılması haqqında imzalanmış bu tarixi sənəd Azərbaycanın geostrateji müstəvidə yeni qələbəsidir. Azərbaycan regionda sülhə, təhlükəsizliyə, əmin-amanlığa və tərəfdaşlığa əsaslanan istəyini reallaşdıraraq Ermənistanın sərhədindən cəmi 5 kilometr aralıda - İran ərazisindən keçəcək yeni kommunikasiya bağlantısı yaratdı. İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi və elektrik xətlərinin çəkilişi ilə bağlı Memorandum imzalanması ilə Ermənistan növbəti dəfə ona verilən şansı itirərək mühüm geostrateji əhəmiyyətə malik layihədən özünü kənarda qoydu. Üçtərəfli Bəyanata əsasən bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunması ilə yeni geosiyasi və geoiqtisadi vəziyyət Cənubi Qafqazda mövcud olan bütün iqtisadi maneələrin aradan qaldırılması və tam regional inteqrasiya üçün böyük imkanlar yaradacaq. Eyni zamanda, Zəngəzur dəhlizinin açılması ilə Türkiyə Azərbaycana birbaşa çıxış əldə edə biləcək ki, bu, Gürcüstan ərazisindən keçən Bakı-Tbilisi-Qars dəmir yolu ilə müqayisədə xeyli qısa yoldur. Beləliklə, daha az nəqliyyat xərcləri Azərbaycanla Türkiyə arasında qarşılıqlı ticarətin daha da artmasına və bölgədə həm turizmin inkişafına, həm də Türkiyənin Orta Asiya ilə əlaqələrinin daha da yaxınlaşmasına səbəb olacaq. Bu baxımdan, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi və kommunikasiyaların bərpası türk ölkələri arasında əlaqələr üçün yeni inkişaf perspektivləri açacaq. Rusiya da Cənubi Qafqazda kommunikasiyaların açılmasından əhəmiyyətli dərəcədə faydalanacaq. Belə ki, Rusiya üçün Zəngəzur dəhlizi region ölkələrinə alternativ quru yolu açır.

Ermənistan və Azərbaycan arasındakı sərhədlərin tanınması, delimitasiya və demarkasiya məsələləri, həm Ermənistan, həm də Azərbaycanın bir-birinin ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı hörmət nümayiş etdirmələri də bölgədə sabitliyin təmin olunmasında vacib şərtdir. Bu baxımdan, Azərbaycan və Ermənistan öz ümumi sərhədlərini müəyyən etməli və bununla bağlı razılığa gəlməli, sərhədlərin delimitasiyası başa çatdıqdan sonra isə qonşu dövlət arasında dövlət sərhədinin keçdiyi ərazilərin sərhəd nişanları ilə işarələnməsi - demarkasiyası həyata kecirilməlidir. Müharibənin nəticələrinin aradan qaldırılması və kommunikasiyaların bərpası, münaqişə və müharibə səhifəsinin bağlanması, hər hansı bir hərbi qarşıdurma riskinin minimuma endirilməsi və ya aradan qaldırılması üçün ölkəmiz maksimum konstruktivlik nümayiş etdirərək qəbul edilmiş üçtərəfli Bəyanatın praktiki olaraq bütün bəndlərini yerinə yetirmiş və dəfələrlə Ermənistana delimitasiya ilə bağlı danışıqlara hazır olduğunu bildirmişdir.

Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizinin açılacağını hər zaman bildirən Azərbaycan Prezidenti İlham Əliyev isə regionda, bölgədə sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə Ermənistana sülh sazişi bağlamağı təklif edir. Belə ki, sülhün tərəfdarı olan Azərbaycan dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı və müstəqilliyinin qarşılıqlı şəkildə tanınması, dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi, dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırdır. Bununla bağlı Azərbaycan tərəfindən Ermənistana bu ilin fevral ayının 21-də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında əsas beş baza prinsipini özündə əks etdirən sənəd göndərilmiş və konkret təkliflər irəli sürülmüşdür. Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanla danışıqları Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü 5 prinsip üzrə aparılmasına razılığı isə Ermənistanda etiraza səbəb olub. Lakin Vətən partiyasının sədri A.Vanetsyanın rəhbərliyi ilə təşkil olunan aksiyada 5-10 nəfərin iştirak etməsi etirazların real sosial bazasının olmadığını və revanşistlərin növbəti iflasını sübut etmişdir. Aksiyada çox az bir qrup insanın iştirakı həm də, erməni cəmiyyətinin Köçəryan, Sarkisyan və ümumən "Qarabağ erməniləri klanı"ndan bezdiyini və onların arxasınca getmədiyini göstərir.




Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova da nazirliyin xüsusi nümayəndəsinin İrəvanda faydalı məsləhətləşmələr apardığını və dialoqun əsasını İrəvan və Bakı arasında dövlətlərarası münasibətlərin bərpasında Azərbaycanın təklif etdiyi əsas prinsiplərin təşkil etdiyini və rəsmi Bakı ilə razılaşdırıldıqdan sonra nümayəndənin Bakıya səfərinin tarixinin açıqlanacağını bildirib. Bütün bunlar isə artıq müzakirələrin Prezident İlham Əliyevin təklif etdiyi gündəlik əsasında aparıldığını göstərir.

44 günlük müharibə Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdi, regional sülh və təhlükəsizlik üçün yeni imkanlar yaratdı. Belə ki, uzun illər ərzində bölgədə hökm sürən münaqişə səbəbindən qonşu ölkələr arasında iflic vəziyyətə düşmüş kommunikasiya və iqtisadi əlaqələrin bərpası bölgənin formalaşan geoiqtisadi və geosiyasi xəritəsini dəyişəcək. Yaranan reallıqlar nəticəsində iqtisadiyyat, nəqliyyat, rabitə və s. sahələrin inkişafı region ölkələrinin bir-biri ilə və digər ölkələrlə ticarət əlaqələrini inkişaf etdirmək üçün yeni imkanlar açacaq.

Azərbaycanın 44 günlük müharibədə qazandığı qələbə Cənubi Qafqaz ölkələrinin beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirəcək, davamlı sülh, təhlükəsizlik mühitinin formalaşmasında mühüm rol oynayacaq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**